**İlahə Fərzalı qızı SƏFƏROVA**
*Qərbi Kaspi Universiteti, Pedaqogika,*
*psixologiya və sosiologiya kafedrası, magistrant*
E-mail: ilahsfrova@gmail.com

# SOSİALLAŞMA ANLAYIŞI VƏ BAĞLILIQ NƏZƏRİYYƏSİ İLƏ ƏLAQƏSİ

**Xülasə:** Sosiallaşma insanın sosial və psixoloji inkişafını təmin edən ən mühüm prosesdir. Sosiallaşma nəticəsində insan bir fərd kimi formalaşır, ictimai münasibətlərə girir. Bu prosesdə daim yeni insan ehtiyacları yaranır və inkişaf edir. Sosiallaşma o zaman uğurlu olur ki, insan sosial münasibətlərə ahəngdar şəkildə daxil olsun və öz problemlərini müstəqil həll edə bilsin. Uğurlu sosiallaşma insan gözləntilərinin reallaşmasını təmin edir, cəmiyyətdə baş verən hər bir dəyişikliyə adekvat reaksiya verir və özünü reallaşdıran harmonik şəxsiyyətə çevrilir.
Şəxsiyyətin ilkin sosiallaşması ailədə həyata keçirilir, onun şəxsiyyət kimi formalaşmasının əsasları qoyulur. Fərd onu əhatə edən dünya haqqında əsas məlumatları ailədə alır. Ailə uşağın şəxsiyyətini formalaşdırır, onun üçün əxlaqi normaları, dəyərləri və davranış standartlarını müəyyən edir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, valideyn-övlad münasibətləri sosiallaşmanın mühüm amilidir və sosiallaşma prosesinin özünə də valideynlərlə münasibətlərin qurulması yolu ilə baxmaq olar.
**Açar sözlər:** şəxsiyyət, sosiallaşma, sosializasiya, bağlılıq, bağlılıq obyekti, sosial institut.

**UOT:** 159.9

**DOI:** doi.org/10.54414/loqe9309

## Giriş

Sosiallaşma sosiallaşma amillərinin, agentlərinin və vasitələrinin təsiri altında həyata keçirilir. Azyaşlı uşaqlar üçün faktorlar arasında sosiallaşmanın mikrofaktorları xüsusi əhəmiyyət kəsb edir ki, bunlardan ən mühümü, əksər alimlərin fikrincə, ailədir. Bu zaman yaxın mühit, xüsusən də böyüklər sosiallaşma agenti kimi çıxış edir. Ana uşaq üçün təhlükəsiz, qorunan bir məkan yaradır və bu məkanda uşağın anaya bağlılığı formalaşır ki, bu da həm sosiallaşmanın ilk mərhələsi, həm də onun uğurunu şərtləndirən amildir.

Müşahidələr göstərir ki, uşağın anasına bağlılıq keyfiyyəti olur və bu onun cəmiyyətdə sosiallaşmasının əsasını təşkil edir. Çünki, bu ikili münasibətdə özünəinam, dünyaya etibar formalaşır, davranış nümunələri mənimsənilir, həmyaşıdlar və yaşlılarla ünsiyyət bacarıqları inkişaf etdirilir. Ana uşağa davranış nümunələri, müəyyən situasiyalarda özünü necə aparmağın "qəbul edildiyi" barədə biliklər, dəyərlər, normalar və qaydalar anlayışlarını verir.

## Sosiallaşmanın tarixi və sosiallaşma prosesinə müxtəlif yanaşmalar

Sosiallaşma anlayışının özünəməxsus tarixi vardır. İnsanın sosiallaşması sosial psixologiyanın ən çox tədqiq etdiyi mövzulardan biridir. Bu mövzu ilə bağlı araşdırmalar S.L.Rubinşteyn, B.G.Anayev, L.S.Vıqotski, A.G.Asmolova kimi

psixoloqların əsərlərində, tədqiqatlarında öz əksini tapmışdır.

Sosiologiyada sosializasiya anlayışı müxtəlif istiqamətlərdə araşdırılıb. Tarixi nəzərdən keçirsək, ilk olaraq Qərb ölkələrində sosiallaşma ilə bağlı araşdırmalar müşahidə olunur. 40-50-ci illərdə onun sosial psixoloji problemləri ayırd edilmiş, neobiheviorizm, simvolik interaksionizm və s. kimi psixoloji cərəyanlarda müxtəlif yönümlərdə təhlil olunmuşdur [1, s.99]. Amerika psixologiya tarixində isə bu anlayışla bağlı araşdırmalar 60-70-ci illərdə özünü göstərir.

Sosiallaşma anlayışının müasir elmi ədəbiyyatlarda dəqiq bir tərifi yoxdur. 1887-ci ildə Amerikalı sosioloq F.G.Giddins "Sosiallaşma nəzəriyyələri" adlı kitabında sosiallaşmanı "fərdin sosial təbiətinin və şəxsiyyətinin inkişafı" kimi izah edirdi [2]. Bugün sosiallaşma anlayışı psixologiya, sosiologiya, etnoqrafiya, kriminologiya kimi elmlər tərəfindən araşdırılır.

Sosializasiya proseslərinin müxtəlif təsnifatları məlumdur. Bu təsnifatlarda sosializasiyanın dörd başlıca sistemi – mikro -, mezo -, ekzo – və makrosistemləri ayırd edilir. Onlar aşağıdakılarla səciyyələnir:

Mikrosistem: ailə + dini qruplar + həmyaşıd uşaqlar cəmiyyəti + yaşayış yerinin sosial mədəni mühiti + tərbiyə institutları.

Mezosistem: etnomədəni amillər + yaşayış məskəninin tipi + kütləvi kommunikasiya vasitələri.

Ekzosistem: valideynlərin iş yeri + yerli səhiyyə şöbələri + məişət şəraitinin yaxşılaşması + uşağın bacı və qardaşlarının ailəsi + dostlarının ailəsi

Makrosistem: planetar proseslər + ölkənin təbii-coğrafi xüsusiyyətləri + cəmiyyət + dövlət [1, s.100].

Sosiallaşma tarixi ilə bağlı araşdırmalar göstərir ki, anlayışa 2 cür yanaşma mövcuddur:

İlk yanaşmanın mahiyyəti ondan ibarətdir ki, insan sosiallaşma prosesində passiv mövqedə dayanır və sosiallaşmanı cəmiyyətə uyğunlaşma prosesi kimi qavrayır. Bu subyekt-obyekt yanaşmasına əsaslanır. İlk yanaşma E.Dürkheym və T.Parsononun sosiallaşma ilə bağlı əsərlərində qeyd etdiyi fikirləri özündə əks etdirir. E.Dürkheym sosiallaşmanın aktiv tərəfi kimi cəmiyyəti qeyd edirdi. Həmçinin E.Dürkheymə görə sosiallaşma insanın sosial sistemə inteqrasiyasıdır [2].

İkinci yanaşmanı dəstəkləyənlər isə insanı sosiallaşmanın obyekti kimi deyil, subyeti kimi görürlər. Onların fikrincə, insan cəmiyyətin azad üzvüdür və o cəmiyyətdə müəyyən sosial normaları dəyərləri qəbul edir və bu zaman aktiv mövqedə dayanır. Həmçinin qeyd olunur ki, nəinki insan cəmiyyətə uyğunlaşır, həm də onun inkişafına, dəyərlərinə müəyyən qədər təsir edir. Yanaşmanın əsasında isə subyekt-subyekt münasibəti öz əksini tapır. İkinci yanaşmanın tərəfdarlarına Ç.X.Kuli, F.Znaniecki, J.G.Mid nümunə göstərilə bilər. C.Kulinin yanaşmasına görə "mən" anlayışı şəxsiyyətlərarası münasibətlərdə sosial xarakter daşıyır. J.G.Mid isə bildirdi ki, sosiallaşma subyekt-subyekt yanaşmasına əsaslanmalıdır və o, bu yanaşmanın inkişafına böyük təkan vermişdir [2].

Humanist psixologiyanın yaradıcıları A.Maslou, K.Rocers, G.Alporta görə isə sosiallaşma fərqli məna kəsb edir. Onlar sosiallaşmanı daha çox özünüaktuallaşdırma, insanın öz potensialını, yaradıcı "mən" inini kəşf etmə prosesi kimi qiymətləndirirdilər [3].

Ego psixologiyası da sosiallaşma ilə bağlı fikirlərini belə ifadə edirdi ki, sosial təsir uşağın daxili təbiəti ilə ziddiyət təşkil etmir. Bu məsələ ilə bağlı E.Erikson sosial faktörların nəinki ziddiyət təşkil etdiyini, əksinə inkişaf zamanı psixobioloji faktorlarla uzlaşdığını bildirir [4]. Erik Fromm isə sosiallaşmanı daha fərqli bir tərəfdən nəzərdən keçirir. Onun fikrincə sosiallaşma prosesi o zaman formalaşır ki, insan sosial maraqları və sosial aktivliyi ilə çıxış edir. Fromm belə şəxsiyyəti produktiv tip adlandırırdı [5].

Ümumiyyətlə, psixologiyada sosiallaşma dedikdə sosial inkişafın mexanizmi nəzərdə tutulur və bu mexanizm nəticəsində fərd sosiallaşır, yetkinlik qazanır. Sosiallaşmanın nəticəsi olaraq fərd şəxsiyyətə çevrilir və cəmiyyət üçün yararlı olan bilik, bacarıq və vərdişləri mənimsəyir. Bu isə onun şəxsiyyətlərarası münasibətlərini inkişaf etdirir. Sosiallaşma prosesində insan aid olduğu cəmiyyətin sosial normalarına, dəyərlərinə, davranışın streotiplərinə uyğunlaşır.

Müxtəlif sosial institutlar və qeyri-rəsmi təşkilatlar vasitəsilə sosiallaşma prosesi inkişaf edir. Bunlara misal olaraq, uşaq bağçaları, peşə məktəbləri, uşaq və gənclər təşkilatını göstərmək olar. İlk və ən mühüm sosial institut ailədir, hansı ki, uşaq bu sosial institutda ilk növbədə anası ilə, daha sonra digər ailə üzvləri ilə münasibət quraraq cəmiyyətə uyğunlaşmaya başlayır.

Sosiallaşmanı dərindən öyrənən sosial psixologiyaya görə sosiallaşma fərdin sosial təcrübəni mənimsəməsi və aktiv mövqedən çıxış edərək təkrar istehsal prosesidir [6]. Müxtəlif həyat situasiyalarının şüursuz təsirindən, əlavə olaraq, sosiallaşma, həmçinin, məqsədəyönəlmiş və sistemli proses olan təhsil və tərbiyə şəraitində də formalaşa bilər. V.M.Sokovkinə görə sosiallaşma olduqca mürəkkəb prosesdir və o özündə 3 səviyyəni ehtiva edir:

1. Cəmiyyətin fərdə təsiri, öz dəyərlərini, sosial normalarını, davranış streotiplərini ötürməsi.
2. Ünsiyyət şəraitində fərdə kütləvi informasiya vasitlərinin təsiri.
3. Ünsiyyət vasitəsilə kiçik qrupların fərdə sosial təsiri [7].

Sosiallaşma ilə bağlı dəqiq bir tərifin olmamasının ilkin səbəblərindən biri tədqiqatçıların bu məsələ ilə bağlı fikir ayrılıqlarıdır. Bir çox müəllif sosiallaşmanı bir proses kimi mərhələlərə ayrırırlar. Psixoloji biliklər tarixində sosiallaşmanın müxtəlif müəlliflər müxtəlif mərhələlərə ayırırlar. Freyd sosiallaşma məsələlərini ətraflı nəzərdən keçirmişdir və psixoanaliz erkən uşaqlığın əhəmiyyətini daha çox vurğulayırdı. Lakin Freydin sosiallaşma mərhələlərinin olduqca sərt struktura malik olması tənqidə səbəb oldu. Xüsusilə Freyd qeyd edirdi ki, şəxsiyyət 5 yaşa qədər inkişaf edir və bu yaşa qədər formalaşmış xüsusiyyətlər şəxsiyyətin xarakterində dəyişməz olaraq qalır. Bu fikirlərin əksinə uzun müddətdir ki, müəlliflər yeniyetməlik dövrünün əhəmiyyəti ilə bağlı da araşdırmalar aparılır [8].

Sosiallama ilə bağlı müzakirəli məsələrdən biri də yetkinlik dövründə sosiallaşma prosesinin davam edib-etməməyi ilə bağlı sullardır. Aparılan müşahidələr bu suala müsbət yöndə cavab verir və bildirilir ki, sosiallaşma yalnız uşaq və yeniyetməlik mərhələrini deyil, həmçinin yetkinlik mərhələsini də əhatə edir. Sosial psixologiyada əsas aparıcı yanaşmalardan biri də fərdin əmək fəaliyyəti nəticəsində ictimai və sosial təcrübəni mənimsəməsidir. Və əmək fəaliyyəti nəticəsində sosial təcrübəyə yiyələnmənin 3 mərhələsi qeyd olunur:

əmək fəaliyyəti öncəsi, əmək fəaliyyəti və əmək fəaliyyəti sonrası [9].

Əmək fəaliyyətindən öncəki mərhələ fərdin hələ əmək fəaliyyəti ilə məşğul olmadığı mərhələdir və o da özündə 2 dövrü əhatə edir:

1. İlk dövrü erkən uşaqlıq dövrü də adlandırmaq olar. Belə ki, bu dövr uşağın anadan olduğu dövrdən məktəb dövrünə qədər olan müddəti əhatə edir.
2. Erkən sosiallaşmanın ikinci mərhələsi isə "öyrənmə dövrü" adlandırılaraq fərdin təhsilalma müddətini əhatə edir. Bu mərhələ kiçik məktəb dövründən texnikum universitet dövrlərini əhatə edir [9].

Məhz bu mərhələ fərdin sosiallaşması üçün xususi əhəmiyyət kəsb edir. Əmək fəaliyyəti öncəsi mərhələlərdə bir neçə sosial institut fərdin sosiallaşmasına əhəmiyyətli dərəcədə təsir edir: ailə, bağça, məktəbəqədər müəssisələr, məktəbdənkənar müəssisələr.

Şəxsiyyət artıq cəmiyyətə uyğunlaşıb onun sosial normalarını, mənəvi dəyərlərini qəbul etdikdən sonra yetkin bir şəxsiyyət kimi əmək fəaliyyəti ilə məşğul olur və öncəki mərhələdə daha çox cəmiyyət fərdə təsir edirdisə artıq fərd aktiv mövqedən çıxış edərək cəmiyyətə təsir edir.

**Sosiallaşma prosesində ailənin rolu**

Fərdin sosiallaşmasında qeyd olunduğu kimi sosial institutlar əhəmiyyətli rola malikdir. Lakin bu prosesdə ilk və ən əhəmiyyətli sosial institut kimi ailə çıxış edir. Xüsusilə, psixoanaltik nəzəriyyələr erkən uşaqlığın ən vacib dövr olduğunu və sonrakı dövrlərə əsaslı təsir etdiyini əsərlərində qeyd edirlər. Fərdin ilkin sosial bacarıqları mənimsəməsi, onun şəxsiyyət kimi formalaşması ailədə baş verir.

Ailə elə bir sosial institutdur ki, fərd ətraf-aləm, dünya haqqında ilkin informasiyaya nail olur. Həmçinin uşağın özünü valideynləri ilə tam identifikasiya etməsi onun cəmiyyətə uyğunlaşmasını təmin edir. Fərd ilk ünsiyyət vərdişlərini, təcrübəsini hələ nitqi yaranmamışdan əvvəl ailədə əldə edir.

Əgər uşaq ailə daxilində valideynlərin davranışlarında ziddiyət, antisosial nümünələr müşahidə edərsə bu sosiallaşma prosesinin uğurlu keçməsinə çətinlik yaradır. Hətta ola bilər ki, ailədə norma kimi qəbul edilmiş dəyərlər cəmiyyətin normalarına uyğun gəlməsin.

Uşağın hər tərəfli inkişaf etməsi və öz hisslərini səlis şəkildə ifadə edə bilməsi üçün o qayğıkeş ailə şəraitində yaşamalıdır. Müşahidələr göstərir ki, valideyn və ailə sevgisini hiss etməyən uşaqlar yaşlandıqca emosional boşluq hiss edirlər, hansı ki, o boşluq heçnə ilə doldurulmur. Uşağın sosiallaşmasında valideynlərin rolu o qədər böyükdür ki, uşaq ilk illərində valideyn qayğısı nəticəsində emosional istiliyi təmin edir. Ailədə yalnız valideyn və uşaq arasındakı bağ deyil, həmçinin, müxtəlif yaşlı uşaqlar arasında da emosional bağ yaranır. Ailədə sosiallaşan, artıq güclü bağlara malik olan uşaq tədricən böyüklərin dünyasına daxil olmağa başlayır.

Valideynlər və uşaq arasındakı bağlılığın formalaşmasında seçilmiş tərbiyə üsulu xüsusi əhəmiyyət kəsb edir. Avtoritar, liberal üslub valideynlər və uşaq arasındakı münasibəti zədələyir, bağlanmanı çətinləşdirir. Həmçinin, bu üslublar uşaqların valideynlərindən uzaqlaşmasına və ailədə arzuolunmazlıq hissinə səbəb olur. Uşaq və valideyn arasında ən yaxşı münasibət, adətən, valideyn demokratik tərbiyə üslubunu üstün tutduqda yaranır. Bu uşaqda fəallıq, müstəqillik və sosial məsulliyyət formalaşdırmaq üçün ən yaxşı üsuldur.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, valideyn-övlad münasibətləri sosiallaşmada mühüm amildir və sosiallaşma prosesinin özünə valideynlərlə münasibətlərin qurulması ilə yolu ilə baxmaq olar.

Müxtəlif müəlliflər uğurlu və qeyri-funksional münasibətlərin müxtəlif aspektlərini və xüsusiyyətlərini müəyyən edirlər. Lakin sosiallaşmadan bəhs edərkən bəzi müəlliflər sosiallaşmanın başlağıcında ən əhəmiyyətli məqam kimi ana ilə uşaq arasındakı diadanı qeyd etmirlər. Müşahidələr göstərmişdir ki, ana ilə münasibətin keyfiyyəti müxtəlif yaş mərhələlərində uşağın sosiallaşma prosesinə əsaslı təsir göstərir. Müxtəlif yanaşmaları və istiqamətləri təhlil edən C.Boulbi ana ilə uşaq arasındakı erkən münasibətin fövqəladə əhəmiyyətli olduğu qənaətinə gəlir. C.Boulbi yeni doğulmuş uşaqlar və valideynlər arasındakı əlaqəni təmin edən mexanizmlərin heyvanlarda bağlanma mexanizmlərindən əhəmiyyətli dərəcədə fərqləndiyini müşahidə etdi. O inanırdı ki, ana və uşaq arasında yaranan bağlılıq uşağa dünyanı kəşf etmək və öyrənmək imkanı verir. Odur ki, ana yaxın insanları yad insanlardan fərqləndirməyə və və digər insanlara etibar etməyi öyrədir [10].

E.Eriksonun nəzəriyyəsi də psixoanaliz nəzəriyyəsinə əsaslanaraq yaranmışdır. Lakin Freydin nəzəriyyəsindən fərqli olaraq E.Eriksonun nəzəriyyəsi psixososialdır. Beləliklə, mədəniyyətin və cəmiyyətin inkişafa təsiri vurğlanmışdır. Onun fikrincə, şəxsiyyətin əsasları cəmiyyətin sosial təşkilindən qaynaqlanır. İnsan öz inkişafı prosesində müəyyən mərhələlərdən keçir, ilk mərhələ isə körpəlikdir. Bu mərhələdə ətraf-aləmə inam və inamsızlıq formalaşır. Həmçinin şəxsiyyətin formalaşması bir neçə inkişaf böhranları ilə müşayiət olunur [5].

Ana ilə uşaq arasında bağlılıq müəyyən mərhələlərdən keçir:

1. Siqnalların müəyyən bir şəxsə differensiallaşdırılmamış oriyentasiyası. Bu mərhələdə bağlılığın əsasları qeyd olunur, uşaq valideynlərlə qarşılıqlı əlaqə nümunələri ilə bağlı gözləntilər və sxemlər formalaşdırır. Həmçinin, istənilən şəraitdə ana və atanı digər insanlardan ayıra bilir.

2. Müəyyən bir şəxsə oriyentasiya. 3 aylıq uşaq sevgi təzahürünün əhatə dairəsini daraltmağa başlayır. O mütəmadi olaraq ona qayğı göstərən insanlara gülümsəyir, yad adamlara isə gülümsəmə olmur. Bu mərhələdəki uşaqlar valideynlərdən ayrılmaqdan və yad insanlardan qorxmurlar.

3. Əsasən qorunan davranış. C.Boulbinin fikrincə təxmini uşağın həyatının 6-cı ayında ana ilə uşaq arasında həqiqi bir bağlılıq formalaşır. 2-3 yaşında uşağın ana və atasına güclü bağlılığı mövcud olsa da bu davranışda daha az nəzərə çarpır. C.Boulbi bu bağlılıq formasını "məqsədə uyğunlaşdırılmış tərəfdaşlıq" adlandırırdı. Burada uşağın məqsədi sevgi və ya bağlılıq obyektinin əlçatan və gözönündə olmasıdır. Hətta bu əlaqə artıq sevgi obyektinin fiziki mövcudluğunu da tələb etmir [10].

Məlumdur ki, təhlükəsiz və sağlam bağlılıq münasibəti yalnız ana ilə deyil, digər şəxslərlə də formalaşa bilər. Uşağın sevgi obyektləri haqqında danışarkən əsas və ikinci dərəcəli şəxsləri ayırmaq olar. Uşağın fiziki tələbatlarla bağlı hər hansı bir narahatlığı yarandıqda bu zaman ilk axtardığı şəxs bağlılıq obyekti hesab olunur. C.Boulbi nəzəriyyəsində qeyd edir ki, uşaq ehtiyaclarına cavab verən və verməyən ana ilə qarşılıqlı əlaqədən nəticə çıxararaq

dünyanı etibarlı və ya etibarsız qavrayır [10].

**Nəticə**

Ailə uşağın şəxsiyyətini formalaşdırır, onun üçün əxlaq normalarını, dəyər yönümlərini və davranış standartlarını müəyyənləşdirir. Valideynlər uşağın şüuruna müəyyən normalar sistemini daxil etməyə, onu müəyyən dəyərlərlə tanış etməyə kömək edən tərbiyə üsul və vasitələrindən istifadə edirlər. Bu məqsədə çatmaq üçün onu həvəsləndirir və ya cəzalandırır, nümunə olmağa çalışır. Uşaq-valideyn münasibətləri, bütün tədqiqatçıların fikrincə, sosiallaşmada kifayət qədər əhəmiyyətli faktordur və uşağın valideynlərlə münasibətinin xüsusiyyətləri vasitəsilə nəzərə alınır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003, -356 səh.
2. Американская социологическая мысль: Тексты / Под ред. В. И.Добренькова. — М.: Изд-во МГУ, 1994. — 496 с.
3. Фрейджер Р., Фейдимен Д. Гуманистическая, трансперсональная и экзистенциальная психология: К. Роджерс, А. Маслоу, Р. Мэй. / Р.Фрейджер, Д.Фейдимен // М.: Прайм Еврознак, 2007. - 224с.
4. Эриксон Э.Г. Детство и общество. / Э.Г.Эриксон // Пер. с англ. А.А.Алексеева, А.И.Герцена. 2-ое издание, переработанное и дополненное. - СПб.: Речь, 2000.-416с.
5. Хьелл П., Зиглер Д. Теории личности. / П.Хьелл, Д.Зиглер //СПб.: Питер, 2000. - 608с.
6. Психология. Словарь. Под общ. ред. А.В. Петровского, М.Г. Ярошевского. 2 е изд., испр. и доп. М.: Политиздат, 1990. - 494с.
7. Смелзер Н. Социология. / Н.Смелзер // М.: Феникс, 1994. - 688с.
8. Андреева Г.М. Социальная психология. / Г.М.Андреева // М.:Аспект Пресс, 2000. - 376с.
9. Андреенкова Н.В. Проблемы социализации личности. Социальные исследования. / Н.В.Андреенкова // М., 1970. - 303с.
10. Боулби Д. Привязанность. / Д.Боулби // пер. с англ.- М.: Гардарики, 2003. - 477с.

**Илаха Фарзали кызы САФАРОВА**
*Западно-Каспийский университет,*
*кафедра педагогики, психологии и социологии, магистрант*
Email: ilahsfrova@gmail.com

## КОНЦЕПЦИЯ СОЦИАЛИЗАЦИИ И ЕЕ СВЯЗЬ С ТЕОРИЕЙ ПРИВЯЗАННОСТИ

**Резюме:** Социализация - важнейший процесс, обеспечивающий социально-психологическое развитие человека. В результате социализации человек формируется как личность, вступает в общественные отношения. В этом процессе постоянно возникают и развиваются новые потребности человека. Социализация успешна только в том случае, если человек гармонично вступает в социальные отношения и способен самостоятельно решать свои проблемы. Успешная социализация обеспечивает реализацию ожиданий

человека, адекватно реагирует на каждое изменение в обществе и становится самоактуализирующейся гармоничной личностью.
Существует множество институтов, участвующих в социализации личности, но в этом процессе, безусловно, ключевую роль играет семья. В семье осуществляется первоначальная социализация личности, закладываются основы формирования ее как личности. Основную информацию об окружающем мире индивид получает в семье. Семья формирует личность ребенка, задает ему нравственные нормы, ценности и нормы поведения. Таким образом, можно сделать вывод, что детско-родительские отношения являются важным фактором социализации, а сам процесс социализации можно рассматривать через установление отношений с родителями.
**Ключевые слова:** личность, социализация, привязанность, объект привязанности, социальный институт.

**Ilaha Farzali SAFAROVA**
*Western Caspian University, Department of Pedagogy,*
*Psychology and Sociology, Masters' student*
Email: ilahsfrova@gmail.com

## THE CONCEPT OF SOCIALIZATION AND ITS CONNECTION WITH THE THEORY OF ATTACHMENT

**Summary:** Socialization is the most important process that ensures the social and psychological development of a person. As a result of socialization, a person is formed as an individual, enters into social relations. In this process, new human needs are constantly emerging and developing. Socialization is successful only when a person enters into social relations in a harmonious way and is able to solve his problems independently. Successful socialization ensures the realization of human expectations, responds adequately to every change in society and becomes a self-actualizing harmonious personality.
The initial socialization of the individual is carried out in the family, the foundations of his formation as a person are laid. The individual receives basic information about the world around him in the family. The family shapes the child's personality, defines moral norms, values and behavioral standards for him. Thus, it can be concluded that parent-child relations are an important factor in socialization, and the process of socialization itself can be viewed through the establishment of relations with parents.
**Keywords:** personality, socialization, attachment, object of attachment, social institute.

**Daxil olub:** 25.02.2022